**Azərbaycan Universitetinin 30 illik yubileyi münasibətilə təbrik**

Azərbaycan Universiteti respublikamızda ilk özəl ali təhsil müəssisəsi olaraq yarandığı ildən çağdaş dövrümüzə qədər şərəfli bir tarix yolu keçib. Yüksək sevinc və fəxr hissi ilə 30 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Universiteti zamanın çətin və kəşməkəşli sınaqlarından böyük inamla və üzüağ çıxaraq özəl təhsil ocağı kimi ölkəmizin təhsil sisteminin inkişafında özünəməxsus bir iz buraxıb.

Məzunu olduğum Azərbaycan Universitetinin auditoriyalarında yüzlərlə mütəxəssis yetişərək hazırda çalışdıqları sahələrə böyük uğurlar qazandırır, təhsildə əldə etdikləri bilik və bacarıqlar sayəsində ölkəmizin inkişafı və tərəqqisinə öz töhfələrini bəxş edirlər.

Bu təhsil müəssisəsinin məzunu olduğum üçün böyük qürur və fəxarət hissləri keçirir, həmin unudulmaz tələbəlik illərini və əziz müəllimlərimi hər zaman dönə-dönə xatırlayıram.

Bütün səviyyələr üzrə aparılan kadr hazırlığı prosesi beynəlxalq standartlar nəzərə alınmaqla həyata keçirilir ki, bu da universitetin nüfuzunun qorunmasına, onun ənənələrinin inkişaf etdirilməsinə xidmət edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük siyasi iradəsi və rəhbərliyi ilə azad edilmiş ərazilərimizin inkişaf strategiyasının gerçəkləşməsində daha çox peşəkar kadr potensialının artırılması təmin olunmalıdır. Ümidvaram ki, bu kadrların hazırlanmasında universitetin pedaqoji kollektivi bundan sonra da səy və bacarıqlarını əsirgəməyəcək, zəngin təcrübə və ənənə sayəsində qarşıda duran vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

Azərbaycan Universitetinin 30 illik yubileyi münasibətilə universitetin rəhbərliyini, professor-müəllim heyətini, bütün məzun və tələbələri səmimi qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Ən xoş arzularla,**
**Azərbaycan Universitetinin məzunu,**
**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı**
**Mirhəsən Seyidov**